# Hər birimizin alqışı, duası Sizinlədir, əziz Prezidentimiz!

*“Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək. Görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır və qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır. Son 10 gün ərzində yoluxanların sayı artır. Bu da ondan irəli gəlir ki, yumşalma dövründə bəzi vətəndaşlar məsuliyyətsizlik göstərmişlər.*



Buna baxmayaraq, vəziyyət tam nəzarət altındadır. Bizim xəstəxanalarda kifayət qədər yerlərimiz var, reanimasiya şöbələrimizdə də həmçinin. Eyni zamanda, əlavə iki min çarpayılıq 10 xəstəxanada koronavirus xəstələrinin müalicəsi nəzərdə tutulur. Bu günə qədər hələ ki, buna ehtiyac yoxdur. Ancaq biz bütün addımlarımızı elə atırıq ki, ən kritik vəziyyətə hazır olaq, ən böhranlı vəziyyətdə də bütün xəstələrə tibbi xidmət göstərilsin...” Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri iyunun 9-da ölkəmizdə modul tipli üç xəstəxananın açılışındakı çıxışında bildirmişdir.

Dövlət başçımızın qeyd etdiyi kimi, dünyada baş vermiş hadisələrə və bir çox inkişaf etmiş ölkələrdə koronavirusla bağlı acınacaqlı vəziyyətə baxdıqda bir daha görürük ki, Azərbaycan bu sahədə də öz modelini ortaya qoyub və bütün hədəflərə ardıcıllıqla, məqsədyönlü şəkildə çata bilib.

Möhtərəm Prezident əlavə etmişdir ki, dünyada hər şey müqayisə ilə ölçülür. Misal üçün bu günə qədər Azərbaycanda yoluxanların sayı 8 minə qədərdir, 350 mindən çox test keçirilib və adambaşına testlərin sayına görə biz qabaqcıl yerlərdəyik. Ancaq qonşu Ermənistanda yoluxanların sayı 13 mini ötüb və testlərin sayı bizdəkindən 5-6 dəfə azdır. Nəzərə alsaq ki, Ermənistan əhalisi Azərbaycan əhalisindən 5 dəfə azdır, mənzərə tam aydındır. Əgər mən gündə yüzlərlə təşəkkür məktubu alıramsa, Ermənistan rəhbərliyi lənətlə dolu yüzlərlə çağırışlar eşidir...

Bu fikrin təsdiqi olaraq, vətəndaşların Azərbaycan Prezidentinə ünvanladıqları məktublardakı ürək sözlərini bəzəkdüzəksiz, olduğu kimi oxuculara təqdim edirik.

*(ardı 2-ci səhifədə)*

Xalq qəzeti 2020.- 11 iyun.- S.1;2.



***Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev cənablarının ölkənin dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasında, vətəndaş müharibəsinin qarşısının alınmasında, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində, dövlətimizin beynəlxalq aləmdə böyük uğurlar qazanmasında, Azərbaycan dövlətçiliyinin nailiyyətlərində müstəsna xidmətləri qeyd edilsin və 15 iyun günü Azərbaycan xalqının milli qurtuluş günü elan edilsin.***

***Milli Məclisin 15 İyun – Qurtuluş Gününün təsis edilməsi haqqında qərarından.***
***Bakı şəhəri, 27 iyun 1997-ci il***

# Heydər Əliyev Azərbaycan xalqının etimadını böyük fədakarlıqla doğrultdu

***Danılmaz faktdır ki, bu gün Azərbaycanda aparılan hərtərəfli islahatlar dünyanın hər yerində yüksək qiymətləndirilir. Hətta Dünya Bankının nüfuzlu "Doing Business 2020" hesabatında Azərbaycanın adı ən islahatçı 20 ölkə sırasına daxil edilib. Təbii ki, bütün bunlar cənab İlham Əliyevin son illərdə həyata keçirdiyi sosial-iqtisadi, struktur və kadr islahatlarının nəticəsidir. Amma o da həqiqətdir ki, ölkədə aparılan bütün islahatların banisi məhz ulu öndərimiz Heydər Əliyevdir. Bunu mən ümummilli liderin təşəbbüsü və müəllifliyi ilə reallaşdırılmış məhkəmə-hüquq islahatlarından bəhrələnmiş mütəxəssis kimi daha qətiyyətlə deyə bilirəm. Elə bu sətirlərin qələmə alınması da həmin qədirşünaslığın nümunəsidir. Biz hüquqşünaslar ölkədə qeyd edilən Qurtuluş Gününə daim ehtiramla, böyük dövlət xadiminin xatirəsinə sonsuz məhəbbətimizlə qoşuluruq. Həmin günün tarixçəsinə gəlincə isə, deməli və yazmalı sözümüz çoxdur.***

Hamının yadındadır. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Bu sənədlə Azərbaycan hüquqi baxımdan müstəqillik əldə etsə də, əslində, xalqın mandatı olmadan hakimiyyəti ələ keçirmiş Mütəllibov rejimi imperiya-ya yarınmaq siyasəti yeridirdi. Tezliklə hakimiyyətdən rüsvayçılıqla uzaqlaşdırılan Mütəllibov rejimini heç bir dövlət idarəçiliyi təcrübəsi olmayan, mitinq tribunalarından gələn və qısa müddətdə Azərbaycanı daha böyük problemlərlə üz-üzə qoyan AXC iqtidarı əvəz etdi.

Həmin illərin reallıqlarını xatırladıqca, insanı dəhşət götürür. Çünki Xalq Cəbhəsinin meydan qəhrəmanları özlərini iddialı şəkildə milli azadlıq hərəkatının liderləri adlandırsalar da, əslində, ölkədə gedən proseslər, milli azadlıq hərəkatının, müstəqillik meyillərinin güclənməsi bütün keçmiş SSRİ məkanında, hətta dünya miqyasında cərəyan edən proseslərlə sıx bağlı idi. AXC- Müsavat iqtidarının bir illik hakimiyyəti dövründə Azərbaycanın strateji cəhətdən əhəmiyyətli əraziləri itirildi, yeni ərazi itkiləri üçün real təhlükə yarandı. Ordu quruculuğu sahəsində konkret heç bir iş görülmədi. Dövlət quruculuğu kimi son dərəcə mühüm sahə başlı-başına buraxıldı, xalqın mənafeyi unudularaq, ayrı-ayrı şəxslərin istək və iddialarına meydan açıldı.

Xarici siyasət xəttinin müəyyənləşdirilməsində yol verilən kobud səhvlər və ifrat subyektivizm halları Azərbaycanın dünya miqyasında təklənməsinə, bir sıra region dövlətləri ilə qarşılıqlı münasibətlərinin gərginləşməsinə gətirib çıxardı. Ölkədə dövlətə deyil, ayrı-ayrı şəxslərə xidmət edən silahlı dəstələr yarandı. Bu isə həmin şəxslərin Konstitusiyaya zidd yolla hakimiyyətə gəlmələri, qeyri-sabitlik və hərc-mərclik üçün zəmin yaratdı, Azərbaycanın bir müstəqil dövlət kimi varlığını təhlükə altına aldı. Ölkə idarə edilmir, hər kəs öz başının çarəsini qılmağa çalışırdı. Öz ətrafında qanunsuz silahlı hərbi birləşmələr yaratmış siyasi qruplar hakimiyyət uğrunda çəkişməni yenidən qızışdırmağa başlamışdılar.

Rəsmi sənədlərdə də qeyd edildiyi kimi, belə bir vəziyyətdə səbri tükənmiş Azərbaycan xalqı Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması tələbini daha qətiyyətlə irəli sürdü. Hər gün Azərbaycanın müxtəlif yerlərindən Naxçıvana nümayəndələr yollanır, teleqramlar göndərilir, Heydər Əliyev hakimiyyətə, çətin vaxtda xalqın harayına çatmağa dəvət edilirdi. Xalq yeganə çıxış yolunu öz böyük oğlunun şəxsiyyətində, qətiyyət və zəkasında görürdü.

1993-cü il iyunun 9-da Heydər Əliyev Bakıya gəldi. Artıq ilk təzahürləri meydana çıxmış vətəndaş müharibəsi alovunu söndürmək üçün Gəncəyə getdi, böyük çətinliklər və iradi qüvvə bahasına böhranın səngidilməsinə nail oldu. 1993-cü il iyunun 15-də müstəqil Azərbaycanın siyasi tarixinin ən məsul və şanlı günlərindən biri yaşandı. Azərbaycan Respublikası Milli Məclisinin iclasında Heydər Əlirza oğlu Əliyev Ali Sovetin Sədri seçildi.

Həmin dövrdə Azərbaycan təkcə siyasi, hərbi, iqtisadi deyil, həm də mənəvi böhran içərisində idi. Cəmiyyətdə ümidsizlik və inamsızlıq əhval-ruhiyyəsi kök atmağa başlamışdı. Heydər Əliyevin qarşısında yalnız ölkəni böhran vəziyyətindən çıxarmaq deyil, həm də xalqın geniş təbəqələrini Azərbaycan dövlətçiliyi ideyası ətrafında birləşdirmək, ona ümid və inam aşılamaq, qətiyyət və mübarizlik tələb etmək vəzifəsi dayanırdı. Ulu öndər bunu böyük ustalıqla reallaşdırdı.

Xalq müstəqilliyin ilk illərində yaşadığı məhrumiyyətlərə, böyük çətinliklərə baxmayaraq, güclü şəxsiyyətin, qüdrətli dövlət xadiminin, Azərbaycan xalqı və dövlətçiliyi qarşısında duran mühüm problemləri həll etməyə qadir şəxsiyyətin siyasi hakimiyyətə qayıdışından sonra sabaha daha böyük ümid və inamla baxmağa başladı. Məhz bu ümid və inamla Azərbaycan xalqı 1993-cü il oktyabrın 3-də yekdilliklə Heydər Əlirza oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi. Sonrakı proseslər isə xalqın inam və ümidini gündən-günə artırdı və ölkədə bugünkü hərtərəfli inkişafın təməli qoyuldu.

Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra baş verən proseslər elə irimiqyaslı idi ki, onların hamısı haqqında bir yazıda söz açmaq mümkün deyil. Ona görə də mən ancaq öz fəaliyyət sahəmizə aid olan bəzi məqamları yada salmaqla kifayətlənmək istəyirəm. Belə ki, ulu öndər dövlət quruculuğu sahəsində başladığı böyük işi məntiqi şəkildə davam etdirərək, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanmasına rəhbərlik etdi. Azərbaycanın siyasi tarixində yeni bir era açan və onun dövlət müstəqilliyinin, cəmiyyətdə insan azadlığının və demokratik dəyərlərin əsas qarantına çevrilən bu Konstitusiya 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edildi. İlk dəfə olaraq demokratik şəraitdə çoxpartiyalılıq əsasında Azərbaycan parlamenti -- Milli Məclisi seçildi. Azərbaycan Respublikası dünyanın azad, suveren, müstəqil dövlətləri arasında özünə layiq yerini tutdu.

Böyük dövlət xadimi yaxşı bilirdi ki, Azərbaycanın beynəlxalq aləmin fəal aktorlarından birinə çevrilməsi üçün sovet dönəmindən qalmış qanun-qaydalardan tamamilə xilas olması lazımdır. Odur ki, ilk mərhələdə -- hələ 1994-cü ilin avqustunda hüquq-mühafizə orqanlarının fəaliyyətini daha da yaxşılaşdırmaq, bu sahədə dövlət idarəçiliyini təkmilləşdirmək məqsədilə "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" fərman imzaladı və cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirildi, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirildi.

Yadımdadır, həmin illərdə ümummilli lider müstəqil Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi, onların müdafiəsi və daha da genişləndirilməsini dövlətin ən ali məqsədi elan etmişdi. Onun rəhbərliyi ilə hazırlanmış ilk milli Konstitusiyamız insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan etmişdir. Konstitusiya 71-ci maddədə insan və vətəndaş hüquq və azadlıqlarını gözləməyi və qorumağı qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə vəzifə olaraq qoymuşdur.

1996-cı il fevralın 21-də də yaradılmış Hüquqi İslahatlar Komissiyası tərəfindən Avropa standartlarına uyğun hazırlanmış Cinayət Məcəlləsinin, Cinayət-Prosessual Məcəllənin, Mülki-Prosessual Məcəllənin layihələri, "Prokurorluq haqqında", "Vəkillik haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", eləcə də "Notariat haqqında", "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrin seçkiləri haqqında" və digər qanunlar milli qanunvericilik sisteminin təkmilləşdirilməsini, yeni dövrün tələblərinə uyğunlaşdırılmasını təmin etmişdir. Bundan əlavə, komissiya tərəfindən işlənib hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlar ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində aparılan ilk mühüm addımlar olmaqla müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaratmışdır. Bütövlükdə isə Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndərin uzaqgörən siyasətinin nəticəsi olaraq, ölkəmiz 200-dən artıq beynəlxalq konvensiyaya, o cümlədən insan hüquqlarının müdafiəsi ilə bağlı 70-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərə riayət edilməsində mühüm nailiyyətlər əldə etmişdir.

Təbii ki, bu tendensiyalar ulu öndərimizin böyük uzaqgörənliklə etimad göstərdiyi möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Amma biz bu gün məhz Qurtuluş Günü ərəfəsində ulu öndərimizin reallaşdırdığı bəzi məqamları yada saldıq. Qətiyyətlə deyə bilərəm ki, Azərbaycanın bugünkü möhtəşəm, dünya miqyasında alqışlanılan nailiyyətlərinin hamısının təməlində Heydər Əliyev siyasi kursunun prinsipləri dayanır. Xalq onu heç zaman unutmayıb və unutmayacaq.

**Elbrus MƏMMƏDOV,**
**Zaqatala Rayon Məhkəməsinin sədri**